# Azərbaycan xalqı gələcəyə çox böyük nikbinliklə baxır

***Respublikamız bugünkü inkişafına, siyasi, iqtisadi, hərbi və mədəni istiqamətlər üzrə əldə etdiyi nəticələrə görə bölgədə və dünyada söz sahibi olan ölkəyə çevrilib. Bu uğurların əldə olunmasında ümummilli lider Heydər Əliyev yolunun layiqli davamçısı Prezident İlham Əliyevin gərgin əməyi, yorulmaz fəaliyyəti, uzaqgörən xarici və daxili siyasəti dayanır. Müasir dünyada liderlik qabiliyyəti ilə seçilən möhtərəm Prezidentimizin ölkəyə rəhbərliyi dövründə Azərbaycan möhtəşəm inkişaf yoluna qədəm qoyub.***

Dövlət başçısının 2003-cü ildə xalqın möhtəşəm dəstəyi ilə Prezident seçilməsi müstəqil Azərbaycanın həyatında yeni mərhələnin başlanğıcı oldu. Ölkəyə rəhbərlik etdiyi son 18 il Azərbaycan tarixinə sürətli inkişaf dövrü kimi daxil olub. Gənc, müstəqil dövlətin əsaslarının möhkəmliyi və həyata keçirilən strategiyanın səmərəliliyi, məhz dövlət başçımızın liderlik keyfiyyətləri, dərin zəkası, siyasi iradəsi və uzaqgörənliyi sayəsində reallığa çevrilib.

Azərbaycan dövlətinin və xalqının maraqlarını ən ali məqsəd kimi görən və bütün qüvvəsini bu istiqamətdə səfərbər edən ölkə Prezidenti xalqın birmənalı şəkildə dəstəklədiyi, inandığı və etimad göstərdiyi liderdir. Ölkəyə rəhbərlik etdiyi ilk gündən başlayaraq, nümayiş etdirdiyi yüksək idarəçilik məharəti, qətiyyətli və milli maraqlara söykənən daxili və xarici siyasəti çox keçmədən öz müsbət nəticəsini verdi. Ötən dövrdə uğurlu inkişaf tarixini yaşayan Azərbaycanda həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat respublikamızın əsas inkişaf göstəriciləridir. Bu uğurların nəticəsidir ki, 2008, 2013 və 2018-ci illərdə keçirilən prezident seçkilərində də cənab İlham Əliyev yenidən inamlı qələbə qazandı.



2018-ci il aprelin 11-də keçirilmiş növbədənkənar prezident seçkilərində cənab İlham Əliyevin seçicilərin mütləq əksəriyyətinin – 86,02 faizinin səsini qazanması xalqımızın iradəsini əks etdirmiş oldu. Azərbaycan xalqı görülən işlərə, inkişafa, tərəqqiyə, milli təhlükəsizliyə, gələcəyə səs vermiş oldu. Prezident İlham Əliyev andiçmə mərasimində çıxışı zamanı səsləndirdiyi fikirlərlə bir daha xalqın gələcəyə olan inamını möhkəmləndirdi: “Biz gələcəyə baxmalıyıq və baxırıq. Növbəti illərdə görüləcək işlər haqqında bizim çox aydın təsəvvürümüz, planlarımız, proqramlarımız var... Ona görə mən əminəm ki, bütün Azərbaycan xalqı və biz hamımız gələcəyə çox böyük nikbinliklə baxırıq. Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar.”

Azərbaycan bu gün dünyada bir çox transmilli layihələrin təşəbbüskarı və uğurlu icraçısı, etibarlı tərəfdaş kimi tanınır. İqtisadiyyatın neft-qaz sektoru əsaslı şəkildə inkişaf etmişdir. Ulu öndər Heydər Əliyevin təməlini qoyduğu Bakı –Tbilisi –Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verildi və ölkə böyük gəlirlər əldə etməyə başladı. 2007-ci ildə istifadəyə verilmiş Bakı – Tbilisi – Ərzurum qaz kəməri Azərbaycanı qaz ixrac edən ölkəyə çevirmişdir. 2014-cü il sentyabrın 20-də Cənub Qaz Dəhlizinin təməli qoyuldu. 2018-ci il mayın 29- da Bakıda Cənub Qaz Dəhlizinin, iyunun 12- də isə Əskişəhərdə bu dəhlizin mühüm hissəsi olan Trans – Anadolu (TANAP) qaz boru kəmərinin açılışı oldu. Cənub Qaz Dəhlizinə qoyulan sərmayə 40 milyard dollara bərabərdir. Bu və ya digər layihələrin reallaşması Azərbaycanın uğurları sırasındadır. TAP layihəsi, Avropanı Asiya ilə birləşdirən Bakı –Tbilisi – Qars dəmir yolu, Şərq – Qərb və Şimal –Cənub beynəlxalq nəqliyyat dəhlizləri ölkəmizi energetika və nəqliyyat mərkəzinə çevirib. Azərbaycan bu gün dünyanın məhdud saylı kosmik ölkələri sırasında yer alır. “Azerspace-1”, “Azersky” və “Azerspace-2” peykləri orbitdə uğurla fəaliyyət göstərir.

Dövlət başçımızın rəhbərliyi altında həyata keçirilən xarici siyasət və nəticəyə hesablanmış diplomatik uğurlar, BMT, AŞ, ATƏT, NATO və bütün digər nüfuzlu beynəlxalq təşkilatların yüksək tribunasından daha qətiyyətlə çıxışlar etməsi və bir çox məsələlərdə beynəlxalq aləmin onun rəyinə hörmətlə yanaşması üçün münbit şərait yaratmışdır.

Ötən illər ərzində Azərbaycanın müdafiə qabiliyyəti gücləndirilmişdir. Təchizat, silah-sursat, texnika, döyüş qabiliyyəti baxımından ordumuz dünyanın ən güclüləri sırasına daxil olub. 2016-cı ilin Aprel döyüşləri bütün dünyaya Azərbaycan Ordusunun gücünü, qələbə əzmini göstərdi. Ərazi bütövlüyümüzü təmin etmək iqtidarında olan və bunu 44 günlük Vətən müharibəsində təsdiqləyən müzəffər ordumuzun həm döyüş qabiliyyəti artırıldı, həm də müasir hərbi texnika ilə təminatı həyata keçirildi. Bu gün böyük fəxrlə qeyd etdiyimiz “bizim sözümüzün imzamız qədər əhəmiyyətlidir” fikri, təbii ki, ötən illər ərzində həyata keçirilən siyasətin, böyük səylərin nəticəsidir. Azərbaycan haqqın, ədalətin tərəfində olduğunu yürütdüyü müstəqil siyasəti ilə bir daha dünyaya nümayiş etdirdi.

Bu gün Azərbaycan azad edilmiş ərazilərdə sürətli bərpa və yenidənqurma işlərini davam etdirir. Bu ərazilərdə yeni yollar çəkilir, elektrik stansiyaları tikilir, strateji infrastruktur obyektlərinin açılış mərasimləri keçirilir, yenilərinin təməli qoyulur. Son 18 il ərzində Azərbaycan modernləşərək yeni keyfiyyət mərhələsinə qədəm qoymuş, ölkənin siyasi, iqtisadi, mədəni həyatı yeniləşərək tamamilə dəyişmişdir.

Prezident İlham Əliyevin praqmatik, çevik siyasəti, sistemli və ardıcıl strateji kursu ölkəmizin müasir inkişafını təmin etmişdir. Dövlət başçımızın qürurla vurğuladığı kimi, bu uğurların əsasında məhz ölkədəki sağlam ictimai-siyasi mühit, xalq-iqtidar birliyi dayanır. Möhtərəm Prezidentimiz tərəfindən həyata keçirilən siyasi kurs Azərbaycanın daha güclü dövlətə çevrilməsinə, xalqın rifahına, firavan yaşayışına və inkişafına hesablanıb.

***Azər SÜLEYMANOV,***
***Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatının sədri***

Xalq qəzeti .- 2022.- 14 aprel.- S.5.